

***Tanınmış yazıçı və haqsevər ziyalı Xeyrəddin Qocanın anadan olmasının 65 illiyi münasibətilə Beynəlxalq Muğam Mərkəzində Azərbaycan Yazıçılar Birliyinin təşkil etdiyi ədəbi-musiqili yubiley gecəsində adibin çağdaş həqiqətlərə işıq salan bəbii və publisistik yaradıcılığı, milli ədəbiyyatımızın ədəbi- estetik ideallarına bağlılığı, torpaqlarımızın bütövlüyün qorunması, dövlət müstəqilliyinin qazanılması və möhkəmləndirilməsi uğrunda ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi ümumxalq mübarizəsində fəal iştirakı, onu çoxlarının sevimlisinə çevirən nəcib insani xüsusiyyətləri diqqət mərkəzində oldu.***

# Xeyrəddin Qocanın yubiley gecəsi

Gecəyə toplaşanları salamlayan Xeyrəddin Qoca sözünə satiriklərə məxsus bir girişlə başlayaraq dedi ki, Türkiyənin ünlü yazarı Əziz Hesin Bakıya gələndə soruşur ki, sizdə satiriklər hökuməti tənqid edə bilirmi? Deyirlər ki, bəli, satiralarda hökumət də tənqid olunur. Əziz Nesin nə desə yaxşıdır?: "Onda sizdə ya satirik yoxdur, ya da hökumət. Hökumətlər satiriklərdən qorxduqlarından bütün üsullarla onlara mane olurlar. Hökumətdən qorxanlar isə satiriklərdən qaçırlar." Bu qədər adamın bu axşam bir satirikin gecəsinə yığışması göstərir ki, bizdə hökumət də var, satira da. Heç kəs satiranın qarşısını almır, satirikdən də qaçmır. Xahişim də budur ki, məni tərifləməyin, yazdıqlarımın məqsəd- qayəsindən danışın.

Mərasimin aparıcısı Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri, AMEA-nın müxbir üzvü, professor Nizami Cəfərov giriş sözündə, təbii olaraq, yubiliyarın mənalı ömür yoluna qısa nəzər saldı, onun milli maraqlarımızla səsləşən, vətəndaşlıq duyğularından qaynaqlanan ədəbi- bədii yaradıcılığından söz açdı. Alim bildirdi ki, 1950-ci il yanvarın 29-da Ağdaşda dünyaya göz açmış, xalq həyatının dərinliyindən ədəbi- mədəni mühitin və ictimai- siyasi aləmin seçilən məqamına yüksələn Xeyrəddin Qoca düz 65 il sonra bu axşam paytaxtın beynəlxalq auditoriyalı bu gözəl salonunda ölkənin nüfuzlu ədəbiyyat və mədəniyyət, elm və ictimai xadimlərinin qarşısında keçib-gəldiyi ömür yolunun hesabatını verir.

Xalq artisti Möhlət Müslümovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblının müşayiəti ilə Xalq artisti Mələkxanım Əyyubovanın, Əməkdə artistlər Cabir Abdullayevin, Ehtiram Hüseynovun, Zakir Quliyevin və başqa ifaçıların səsləndirdikləri muğam və xalq mahnıları gecəyə bədii əlvanlıq gətirdi.

Xalq şairləri Nəriman Həsənzadə və Zəlimxan Yaqub müsiqi nömrələri arasında sənət dostları Xeyrəddin Qocanın satirik- dramaturji yaradıcılığından, onun hədsiz səmimiliyindən, söz açdılar. Yubilyarın qəzetçilik və publisistik, ictimai- siyasi və diplomatik fəaliyyətindən söz açan millət vəkili Elmira Axundova məslək və mübarizə dostunun bioqrafiyasının bu səhifələrinin ümummilli lider Heydər Əliyevin tarixi xilaskarlıq missiyasına Xeyrəddin Qocanın ziyalı dəstəyi verməsi və sədaqəti, ulu öndərin isə ona rəğbət və etimadı ilə əlamətdar olduğunu vurğuladı.

Sonda Xeyrəddin Qoca mərasimin təşkilində zəhməti olanlara razılığını bildirdi, xoş sözlərə və təbriklərə görə səmimi minnətdarlığını söylədi, qələmi ilə qədirbilən oxuculara xidmətini bundan sonra da davam etdirəcəyini söylədi.

**Tahir AYDINOĞLU**